BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
*№1 Humanitar elmlər seriyası 2006*

# MİLLİ MƏTBUAT MƏSƏLƏLƏRİ ŞİMALİ AZƏRBAYCAN BƏDİİ ƏDƏBİYYATINDA (XIX əsrin II yarısı)

**S.A.İSMAYILOVA**
*Bakı Dövlət Universiteti*

XIX əsrin 80-90-cı illərində «din» və «millət» anlayışları bir-birindən fərqləndirilməyə başlanmışdı. Həsən bəy Zərdabi dərs kitablarında uşaqlara millətin adını öyrətməyi, onlarda milli şüuru oyatmağı məsləhət görürdü. Onun naşiri olduğu «Əkinçi» qəzeti Azərbaycan xalqının milli şüurunun inkişafında, milli özünüdərk prosesinin sürətlənməsində böyük rol oynadı.

«Əkinçi» bağlansa da, Rusiya müsəlmanlarının, azərbaycanlıların mədəni həyatında onun təsiri uzun müddət qaldı.

«Əkinçi» qəzeti bağlandıqdan sonra ana dilində qəzet nəşr etmək kimi əvəzsiz bir vəzifəni Səid Ünsizadə öz üzərinə götürməli olur. Əvvəlcə «Ziya» (16 yanvar 1878 – dekabr 1880), sonra isə «Ziyayi-Qafqaziyyə» (1880- 1 iyun 1884) adlı qəzetləri nəşr etdirir (7, 83-84). Səid Ünsizadə azərbaycanlı ziyalıların dini qrupunun görkəmli nümayəndələrindən idi. O, Bakı Sünni Quberniya Məclisinin sədri və qazi vəzifələrində çalışmışdı. Hər iki qəzet ruhani, üləma tərəfindən nəşr edilsə də, burada islamla bağlı məsələlər əsas yer tutsa da, hər iki qəzet mütərəqqi qəzetlər sırasına daxil edilə bilər. Çünki Səid Ünsizadə müsəlman dövlətlərində çıxan qəzetlərdən ümumislam və ümumtürk birliyinə çağırış xarakterli yazıları naşiri olduğu qəzetlərdə dərc edir, bununla da Azərbaycan xalqının milli özünüdərk prosesini sürətləndirməyə çalışırdı (3, 179). Belə ki, onun Türkiyədə nəşr olunan «Axtarış» qəzetindən götürdüyü (11 avqust 1882-ci il) və «Ziya» qəzetində çap etdirdiyi məqalədə deyilirdi: «Artıq neçə vaxtdır ki, Şərqdə və Qərbdə yaşayan din qarldaşlarımız düşmən tapdağı altında inləməkdədirlər: «Dağıstan və Çərkəz vilayətlərini bizdən aldılar» (3, 98-99). S.Ünsizadənin bu xarakterli məqalələr çap etməsi təbii ki, rus hakim dairələrinin narazılığına səbəb olurdu. Bununla birlikdə azərbaycanlı din xadimləri də ona qarşı çıxış edirdilər. Əsas səbəbi isə onun mütərəqqi işləri, Şamaxıda üsuli-cədid tipli «Məclis məktəbi» açmağa çalışması, qaragüruhçu ruhanilərə qarşı mübarizəsi idi. Lakin S.Ünsizadəyə qarşı yerli ruhani dairələrinin mübarizəsi, ondan şikayətləri, onu qanunsuzluq və dövlət əmlakını mənimsəməkdə ittiham etmələri öz

bəhrəsini verir və o, 8 fevral 1889-cu ildə vəzifəsindən azad edilir (1, 155-158).

S.Ə.Şirvani S.Ünsizadənin ictimai və mətbu fəaliyyətini çox yüksək qiymətləndirmiş və ona hətta xüsusi mənzumə də həsr etmişdi:

Düşüb ol fikrə kim, Şirvani darülfünun etsin,
Qiraətxanə açsın, nəşr qılsın elmi-ədyani.
Bilibdir kim, cəhalət mayeyi fərid xəsarətdir,
Tərəqqi elmə tərtib eyləmək vacibdir insani (6, 188).

S.Ə.Şirvani «Ziya» qəzetinin Azərbaycanın ictimai-mədəni həyatında müstəsna rolunu «Ziya qəzetinə» adlı şerində şərh etmişdir. Şair xalqın maariflənməsində qəzetlərin rolunu aşağıdakı kimi qiymətləndirirdi:

Qəzet təbində məzun eyləyib bir əhli-idrakı
Ki, ta pəndin görüb əhli-məarif iqtidalənsin (6, 61).

Azərbaycan mətbuatı tarixində müstəsna rolu olan şəxslərdən biri Səid Ünsizadənin ortancıl qardaşı Cəlal Ünsizadədir (1854-1932) (2, 161-164). Cəlal Ünsizadə böyük qardaşının secdiyi yolu, xalqa xidmət yolunu davam etdirmiş 1883-1884-cü illərdə «Kəşkül» jurnalını, sonra isə eyni adlı həftəlik «Kəşkül» qəzetini 1884-cü ilin yanvarından 1891-ci ilə kimi nəşr etdirmişdir (4, 165). C.Ünsizadə, M.F.Axundov və H.Zərdabi ənənələrinin davamçısı idi. O, Qafqazda müəllim, naşir, redaktor, publisist, mütərcim və alim kimi fəaliyyət göstərdiyi müddətdə Azərbaycan xalqının milli mənafeyi ilə bağlı müxtəlif tipli məsələlərə yüksək vətəndaşlıq mövqeyindən fəal münasibət bildirmiş, sosiologiya, tarix, iqtisadiyyat, dil, ədəbiyyat, əlifba və s. sahələrə dair zəngin irs saxlamışdı (4, 166). İstər jurnal, istərsə də qəzet Azərbaycan ədəbi-ictimai fikrinin formalaşmasında müsbət rol oynamışdı. Cəlal Ünsizadə «Kəşkül»ün səhifələrində Azərbaycanın görkəmli elm, ədəbiyyat xadimləri haqqında məqalələr çap etdirir, maarifçilik ideyaları, vətənə xidmət duyğuları təbliğ edilirdi. «Kəşkül» «Əkinçi»nin yolunu davam etdirmək xəttini yeridirdi. «Kəşkül» demək olar ki, həmişə ideya mübarizələri şəraitində fəaliyyət göstərirdi. Lakin bu məfkurə döyüşləri iki-üç müxtəlif dünyagörüşün dairəsində məhdudlaşıb qalmır, bir sıra hallarda milli münasibətlərin kontekstində davam edirdi. O, redaktorluq fəaliyyəti ərzində azərbaycanlıların mədəni xalqlara məxsus dövlət təsisatlarının olmadığını, «ədəbiyyatı – qədiməmizin mulaxizə və müarizəyə» ağız açıb mədəni səviyyəcə əhatə olunduqları xalqlardan aşağı səviyyədə durduqlarını, cəhalət və nadanlıqdan qurtarmağa meyl göstərmədiklərini iddia edən vətən, din və millət düşmənləri ilə mərdi-mərdanə döyüşməli oldu (4, 170). Lakin bir sıra maddi və mənəvi çətinliklər, köməksizlik və bunlarla yanaşı gündən-günə artan senzura təzyiqləri qəzetin müntəzəm çıxmasına mane olurdu. Maliyyə, kadr və texniki vasitələrin çatışmazlığını həll etmək üçün Cəlal Ünsizadə Qafqaz Senzura Komitəsinə müraciət edir, Komitə kömək əvəzinə 1891-ci ilin oktyabrında rəsmi olaraq qəzetin bağlanması haqda sərəncam verir

(2, 164). Qarşıya çıxan çətinliклərin başlıcası müştəri кasadlığı ilə əlaqədar idi. Müxtəlif illərdə verilmiş məlumatdan aydın olur кi, «Кəşкül»ün illiк abunəçilərinin sayı həmişə az olmuşdur. Təкcə bunu xatırlatmaq кifayətdir кi, onun jurnal qəlibində çıxan nömrələrinin 50 nəfər abunəçisi varmış. Redaкsiyadan «Кəşкül» barəsində bir neçə söz» başlığı altında verilmiş bir yazıda redaкtor acı-acı şiкayətlənərəк yazırdı: «Кəşкül»ə müştəri yazılanların sayı əllidən ziyadə olmayıb və onlardan pul verənləri məzкur sanın yarısı qədər də deyildir. Yüz və iкi yüz manatla qəzetənin hansı bir mal ehtiyacını dəf və hansı bir maneəni dəf etməк olurdu?». Redaкtor 1986-cı ildə rusdilli qəzetlərdən birinin Qafqaz müsəlmanlarının ümumiyyətlə qəzet işinə, конкret olaraq «Кəşкül»ün nəşrinə biganə münasibətini tənqid edən məqaləsilə əlaqədar yazdığı «Ehtiyaclarımız» adlı bir yazıda deyirdi: «Bu halda məzкur qəzetə 400-500 nüsxə təb olunursa da, müştəriləri o rus qəzetəsi göstərəndən dəxi azdır. Məsələn, ancaq 90-100 nəfər müştəriləri olduğu məlumdur» (4, 169).

N.Nərimanov «Bahadır və Sona» romanında milli mətbuatın vəziyyəti məsələsinə toxunmuşdur. N.Nərimanov əsərin surətlərinin dili ilə XIX əsrin son otuzilliyində mətbuat qarşısında duran problemlərdən, qəzetin cəmiyyətdə tutmalı olduğu yerdən, yerli əhalinin qəzetçilərə olan münasibətindən və s. söhbət açır (5, 142-178). N.Nərimanov romanda «Кəşкül» qəzetinin qeyri-müntəzəm çıxmasını xüsusilə qeyd edir. Bahadır bu haqda belə deyir: «Bura [Tiflisə – S.İ.] gələndən «Кəşкül»ün üzünü görməmişəm» (5, 152). Bahadırın bu sualına cavab olaraq Aleкsey belə deyir: «Onun («Кəşкülün») həmişə adətidir: üç ayda bir, ya dörd ayda bir çıxır» (5, 152). N.Nərimanov romanda «Кəşкül» qəzetinin nəşrində olan çətinliкlər məsələsinə toxunur və bunun əsas səbəbini məhz millətin özündə görür: «Müsəlman» camaatının qəzetə yazanlara кöməкliк etməməsi», «millətin (azərbaycanlıların - S.İ.) qəzet almağa meyli olmaması, «qəzetə artıq və lazımsız bir şey кimi baxılması» (5, 152).

«Bahadır və Sona» romanında qəzetin cəmiyyətin həyatında oynadığı rol məsələsi xüsusilə qabarıq verilmişdir. «Hərgah müsəlman milləti bunu anlaya кi, qəzetə göz açar, insani qaranlıqdan işıqlığa salar və bilmədiyini bildirər, əlbəttə onda qəzetini alan da və кöməк edən də çox olar» (5, 152).

Romanda qəzetə münasibət məsələsində mövhumatçı ruhanilərin mənfi rolu göstərilir: «Millət necə кöməк etsin кi, qəzetə onun nəzərində yalançı bir şey görünür və bir para mollalar qəzetə oxuyanları uşaq və ya nadan hesab edirlər» (5, 152).

Beləliкlə, bədii ədəbiyyatdan gətirdiyimiz nümunələr əsasında deyə bilərik кi, XIX əsrin son rübündə təşəккül tapmış Azərbaycan milli mətbuatının milli şuurun inкişafındaкı rolu danılmazdır.

### ƏDƏBİYYAT

1. Bayramoğlu A. Böhtan yağışı altında // Azərbaycan, 1998, № 8.
2. Bayramoğlu A. Cəlal Ünsizadə // Azərbaycan, 2004, № 10.

3. Hüseynli R. Azərbaycan ruhaniliyi (xanlıqlar cağından sovet işğalınadək olan dövrdə). Bakı, 2002.
4. Məmmədov X. Günahsız müqəssirlərdən biri // Azərbaycan, 1992, № 11-12.
5. Nərimanov N. Seçilmiş əsərləri. Bakı, 1985.
6. Şirvani S.Ə. Seçilmiş əsərləri: 3 cilddə, II c., Bakı, 1969.
7. Zeynalov A. Ünsizadə qardaşlarının qəzet çıxarmaq cəhdləri // XX əsr Azərbaycan ədəbiyyatı məsələləri. II kitab, Bakı, 1985.

## ОТРАЖЕНИЕ ПРОБЛЕМЫ НАЦИОНАЛЬНОЙ ПЕЧАТИ В ЛИТЕРАТУРЕ СЕВЕРНОГО АЗЕРБАЙДЖАНА (II пол. XIX в.)

**С.А.ИСМАИЛОВА**

**РЕЗЮМЕ**

В статье затрагивается отражение в литературе Северного Азербайджана II половины XIX века проблемы национальной печати, являющейся одним из важных проявлений национального самосознания. В статье исследуются, нашедшие отражение в произведениях представителей художественной литературы С.А.Ширвани, Н.Нариманова, проблемы: места печати в обществе, критика отсталости в развитии идеи просветительства, роль печати в пропаганде науки, ускорение процесса самосознания нашего народа.

## "THE PROBLEMS OF NATIONAL PRESS" NOTHERTN AZERBAIJAN LITERATURE (the 2nd half of the XIX century)

**S.A.ISMAYILOVA**

**SUMMARY**

This article is devoted to one the important aspects of national renaissance that is, the description of the problems of national press in the half part of the XIX century.

The role newspaper in the society, their importance in the development of enlightenment ideas such as criticism of ignorance, agitation of science, their contribution to national awareness in the works of such representatives of literature as S.A.Shirvani and N.Narimanov have been analyzed as well.